# Qaşqaylar və onların folkloru

**Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik**

***əvvəli ötən saylarımızda***

Yusifəlinin çağdaşlarından yazanda Təhmas Şakaki Bollu, Davud Həsən Ağalı, Teymur Qurbani Bulverdi, Mənsur Şah Məhəmmədi Mehtərxan, Həmrah Danişver Kohba, Əliəkbər Həsəni Teyibli, Əzəm Əmir Teymuri Gürekani, İmanqulu Cahangiri Cumabuzurgu, Xəlil Məhəmmədi Kəşküllü, Əli Rıza Borbor, Piran Muxtari Çigini, Maral Rızai Rahiminin adlarını çəkir.

Müslüm Rzayi Əmələh yazır ki, gənc və yeni nəsil şairlər klassik şeir vəznləri ilə yanaşı, yeni modern şeirlər də yazmağa başlamışlar. Sərbəst şeirə üstünlük verən gənc Qaşçay şairləri 5, 6 və 7 hecalı şeirlərlə yanaşı, akca qoşma adlandırdıqları şərbəst qafiyəli şeirlər də yazırlar. Onlara nümunə də Əvəzullah Səfəri Kəşküllü, Ərsalan Mirzəyi Teyibli, Kambiz Nəcəfi Çobanqara, Bəhmən Muradi Əlamdarlı, Novzer Ustuvar Dərəşorlu, Arman Fərhəng Şorbahlı, Əli Fereyduni Köləli, Kavə İrəvaŋi Okmulu, Fəttanə Muradi Qaraqanlı, Raziyə Kazım Qurranı, Soğra Muradi, Duman Əjdəri Bölverdi, Pəricehr Məhəmmədzadə Qadılı Borbor, Səhər Kəşküllü, Teyyibə Kərimi Cəfərbəylinin adlarını çəkir (Moslem Rezaei Amaleh, səh. 28-29).



Şəkildə Cəfər Eyvəzi Yadıkurı nəşr etdirdiyi "Mezun Qaşqai. Şeirləri" kitabını Əli Şamilə bağışlayarkən

Müslüm Rzayi Əmələh Mənsur şah Məhəmmədinin özündən aldığı bilgilər əsasında onun şeirlərini təhlil edir. 1945-ci ildə Firuzabad bölgəsindəki Ovsirin Qarağac qışlağında doğulan şair Əmələ tayfasının Əli Mehtəran nəslindəndir, atasının adı Abbas, babasının adı İsmayıldır. Şair ilk təhsilini çadırlardakı məktəbdə alıb. Sonra Firuzabaddakı orta Qamus litseyində, Şirazdakı köçəri təhsil mərkəzində pedaqoji təhsil alıb və 30 ilə yaxın müəllimlik edərək təqaüdə çıxıb (Moslem Rezaei Amaleh, səh. 30).

Tağı İbrahimov Qaşqay folklorçusu Mahmud İskəndəri haqqında yazır: " təxminən 1925-ci ildə Kəşküllü tayfasının qışlaqlarının birində anadan olub. Qaşqayların 20-ci illərdə davam edən üsyanlarından və Qaşqay elxanı İsmayıl xan Sövlətüddövlənin 1932-ci ildə Rza şahın "Qəsri Qacar" zindanında öldürülməsindən sonra Mahmud İskəndərinin atası İsfəndiyar İskəndəri Fars əyalətinin Boyer Əhmədi rayonunda bir kəndə sürgün edilir. Gənc Mahmud 16 yaşına qədər sürgündə qaldığından ağır yaşayış şəraiti onun müntəzəm təhsil almasına imkan verməmişdir. Mahmud İskəndəri sürgündə kənd mollası yanında oxuyub yazmağı öyrənmişdir. 1941-ci ildə Rza şah hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra sürgündən xilas olan Mahmud İskəndəri öz tayfasına qayıtmış, Qaşqayların Pəhləvi sülaləsinə qarşı üsyanında yaxından iştirak etmişdir. Eyni zamanda, elinin dilinə, ədəbiyyatına, folkloruna, adət-ənənəsinə bəslədiyi məhəbbət Mahmud İskəndərini Qaşqay tayfaları, qəbilələri və tirələri içində oba-oba gəzib Qaşqay şairlərinin şeirlərini, el dastanlarını və nağıllarını toplamağa sövq etmişdir.

Mahmud İskəndərinin yorulmaq bilmədən çəkdiyi ağır, lakin şərəfli zəhmət və göstərdiyi fəaliyyət nəticəsində elin tayfa və tirələri işərisində sətir-sətir, misra-misra topladığı şeirlərdən bu vaxta qədər 41 qoşma bizim əlimizə gəlib çatmışdır. Onlardan 30-u Mezunun, 11-i Yusifəli bəyin şeirləridir" (T.Ə. İbrahimov( Şahin), Qaşqaylar, səh. 100-101).

**Qaşqayların sevimli şairi Mezun**

Onu da deyim ki, son onilliklərdə Qaşqaylar arasında folklor nümunələrini toplamağa, klassikləri öyrənib nəşr etməyə, ana dilində yazıb-yaratmağa meyl artıb. Hətta bəziləri kitabları Latın əlifbası ilə nəşr etdirir ki, həm Qaşqay gəncləri bu əlifbanı öyrənsin, həm də Türkiyədəki, Azərbaycandakı araşdırıcılar onların əsərlərindən yararlansın. Bu baxımdan, bilgisayar mühəndisi Cəfər Eyvəzi Yadıkurının Latın əlifbası ilə hazırladığı "Mezun Qaşqai. Şeirləri" kitabı olduqca dəyərlidir. Tərtibçi əski əlifba ilə yazılmış mətnləri Latın əlifbasına çevirəndə yaranan çətinliklərdən, ləhcə və ədəbi dil normaları məsələsindən, Mezun şeirlərinin ondan əvvəlki nəşrlərində yol verilmiş xətalardan elmi əsaslarla söz açır.

Kitaba daxil etdiyi "Qaşqay elinin tarixi" məqaləsini isə Cəfər Eyvəzinin Qaşqaylar haqqında bilgilər toplusu adlandırmaq daha doğru olar. Çünki burada tarixlə yanaşı, Qaşqay dili, ədəbiyyatı, şairləri, şeir şəkilləri, musiqiçiləri və s. haqqında da bilgi var. Kitabın sonunda da sanballı bir sözlük verib ki, bu da istər gənc Qaşqay oxucuları, istərsə də Türkiyə və Azərbaycan araşdırıcıları üçün olduqca dəyərlidir.

Cəfər Eyvəzi yazır ki, Mezun ləqəbilə Türkcə, Tatca(Fars dili nəzərdə tutulur-Ə.Ş.), Lorca şeirlər yazan Seyid İbrahim 1830-cu (hicri 1246) ildə doğulub, 1895-ci (hicri1313) ildə dünyasını dəyişəndə Şirazdakı Dərvaze İsfahan məhəlləsində, Şahzadə Mənsur qəbiristanlığında dəfn edilib. İndi həmin qəbiristanlıqdan əsər-əlamət qalmayıb. Oranı düzləyib, beton töküb yeni binalar tikməyə başlayanda Qaşqaylar yığılıb bələdiyyəyə şikayətə gediblər. Mezunun və Qaşqayların başqa tanınmış şəxsiyyətlərinin qəbirlərini dağıtmağın toplum arasında rahatsızlıq yaratdığını görən rəhbərlik tikintinin dayandırılması haqqında göstəriş verib.

Cəfər Eyvəzi yazır: "Onun famillarının çoğu o zaman sevadlimiş. Sonra diğer familları tekin, Dereşorlı tayfasının xanları ve kelanterleri yanında mektebdarlığa meşğul olur. Melik Mensur Xan dediğine göre, Mehemmed Qulu Xan destgahında, şahnama oxumağa meşğul olur ve neççeden sonra el beyi Eli Qulu Xan, Allahyar Xan ve Bahadır Xan destgahında münşilik eder. O ele bu arada şi'ir demeğe baş qoyar. Evvel "Mehzun" texellusunu seçer, ama İsfahan hakımı, Zıl-ol-Sultan tapşırışı inen, öz texellusunu Mezun'a değişdirer. Mezun, özgür, tez inceyen ve qorxmaz bir şa'ırımış. ... Mezunun yaşam dowranı, İranın bir mühüm tarıxsal olaylarınan çağdaş olmuşdur. Britanıya-İran arasında 1857'de qanlı bir savaş oldu. Bu savaç sonucunda İndiki Efğanıstandakı Heratı şehri İrandan aralandı. Mezun bu savaşa giden Qaşqayıların qorxmazlığı, iğidliği, fedakarlıkları ve gençlerin şehadetini tesvire çekip, onların yoxluqlarına yaş tökmüşdür. Bunların biri Sohrab Xan dir. Mezun onun iğidliğinden böle yad edmişdir:

Sohrab Xan qılıcı berq-i cansıtan Ferenide meşhür oldu dasıtan" (səh. 21)

Cəfər Eyvəzi bizi Mezunun dəfn edildiyi qəbiristanlıq yerinə apardı. Dedi ki, ötən illərdə, Məhəmməd Nadiri Dərəşorlu və Qaşqay aydınları bu məzarı bir anıt olaraq düzəltməyə çalışırlardı. 2015-ci ilin Oruc (Ramazan) ayında Məhəmməd Nadirinin maşını yolda qəza elədi, özü də dunyadan getdi.

Biz köhnə qəbiristanın yerinə gələrkən orada qəbiristanlıqdan əsər-əlamət qalmamışdı. Ətraf müvəqqəti hasara alınmışdı, yerə isə dəmir çubuqlar qoyulub üzərinə beton tökülmüşdü. Tikinti işinin dayandırıldığı göz qabağında idi. Cəfər Eyvəzi də, Əmin də bu işin Qaşqayların istəyinə uyğun həll olunacağına inamsız yanaşırdılar.

Onların fikrincə, buranı alan, bina tikməyə başlayan adam işi məhkəməyə daşıyacaq. Orada da bir-iki illik süründürmədən, mövzu unudulandan sonra tikintisinə icazə veriləcək. Bunu onlar təcrübəyə əsaslanıb deyirdilər. Şiraza turistlər çox gəlir. Gələnləri də adətən Sədinin, Hafizin qəbirüstü abidəsinə aparırlar. Məzunun qəbri üstündə də bir abidə ucaldılsa oraya ziyarətə gələnlərin də sayı artar. Bu şəhərin həm iqtisadiyyatına təsir göstərər, həm də İranın ölkədə yaşayan xalqlar arasında ayrıseçkilik qoymadığını təbliğ edər. Köhnə Şirazın Türklər yaşayan Bölverdi məhəllәsi də sökülәndə belə bir hadisə olub. İş dayandırılıb, sonra yenidən tikinti başlayıb.



Mezunun şeirlərini ilk dəfə Məlik Mənsur xan 1920-ci ildə toplatdırıb. Lakin həmin nüsxə Məlik Mənsur xan Berlində yaşayarkən, yəni İkinci Dünya Savaşı illərində müttəfiqlər şəhəri bombalayanda məhv olub. Məlik Mənsur xan İrana döndükdən sonra Moyin Dəftər Qəhramaniyə yenidən Mezunun şeirlərini toplatdırıb. Şahbaz Şahbazi də həmin dəftərdə olan şeirləri 1988-ci ildə nəşr etdirib.



Cəfər bəyin hasara dırmaşıb Mezunun qəbiri üzərindəki tikintidən çəkdiyi şəkil

Şahbaz Şahbazi yazır ki, şairin atası Kəşküllü (Əmələ), anası Qadılı boyundandır. Əlişir Nəvaidən və Məhəmməd Füzulidən təsirlənən Mezunun babaları Xuzistan Avşarlarındandır. Ona görə də, şeirlərinin dilində Avşarların ləhcəsi ağırlıq təşkil edir. Bu günkü Qaşqay aydınları Mezunu özlərinin klassikləri sayırlar. Cəfər Eyvəzi Yadıkurı 2019-cu (1397) ildə Şirazda nəşr etdirdiyi "Qaşqayının gələnəksəl şeirləri" kitabına Mezunun 109, Yusifəli bəyin 27, Xosrov bəy Qaraqanlının 3, Məhəmməd İbrahimin 10, Qul Orucun 4, Hüseynəli bəy Bayatın 4, Nemətullah bəy Rəhimlinin 8, Əli Şaylının 1, Hacı Məssi bəy Qaraçaylının 1, Həmrahın 1, Koroğunun adına isə məşhur vücudnaməsini daxil edib.

**Şiraz Universitetinin salonunda konsert**

Şiraz Universitetinin salonunda təşkil edilmiş konsertə də Qaşqay geyimində getdim. Musiqiçilərdən bəziləri ilə Girəsunda tanış olmuşdum. Əlindən tutulub səhnəyə gətirilən ağsaqqal bir müsiqiçini (deyəsən, gözləri görmürdü) tamaşaçılar ayağa durub sürəkli alqışladı. Aparıcı elan etdi ki, Furud (Qaşqaylar ona Furud desə də, sənədlərdə adı Forud, soyadları Gorginpoor kimi yazılır) və Fərhad Görginpur qardaşlarının Qaşqay musiqisinin təbliğində və gənc musiqiçilərin yetişməsində rolu böyük olub. Bu gün Şiraz Universitetinin keçmiş müəllimi, Fars dili və Ədəbiyyatı sahəsində doktorası olan alim Fərhad Görginpur sizin üçün bir neçə mahnı çalacaqdır. Görginpur qardaşlarının övladları da musiqiçidir. Salonu gurultulu alqışlar bürüdü. Alqışlardan və salondakıların hay-harayından Fərhad Görginpurun xalq arasında nə qədər böyük hörməti olduğunu açıq görmək olurdu.

Fərhad Görginpur bir neçə mahnı çaldıqdan sonra onu gələndə olduğu kimi gedəndə də alqışlarla yola saldılar. Sonra ansambl səhnəyə çıxdı. Girəsundan tanıdığım İbrahim xan Kohendlipurun "Koroğlu" dastanından oxuduğu "Beş duma" mah nısı məni yaman kövrəltdi.

**ardı var...**